Ramil Soltanov

# CÜMƏ NAMAZI

# Mərhəmətli, Rəhimli Allahın adı ilə.

## Cümə namazı

Müsəlmanlar müxtəlif vaxtlarda bir sıra ibadətləri yerinə yetirmək üçün bir yerə toplaşırlar. Bu ibadətlərə gün ərzində qılınan beş vaxt namaz, həftədə bir dəfə qılınan cümə namazı, ildə iki dəfə qılınan bayram namazları, həcc və s. misal gətirmək olar. Bu kitabçamızda camaatla birgə həyata keçirilən və əhəmiyyətinə görə ibadətlər arasında xüsusi yeri olan cümə namazından bəhs edəcəyik. ***Cümə:*** *hicri təqvimində həftənin yeddinci gününə, miladi təqvimində isə həftənin beşinci gününə deyilir.* Həmçinin, *cümə günü camaatın məsciddə toplaşıb birgə qıldıqları namaz da* ***cümə namazı*** *adlanır.* İlk cümə namazı Peyğəmbərin ﷺ məscidində, ondan sonra isə Bəhreyndəki Əbdülqeys məscidində qılınmışdır.[1]

Uca Allah cümə namazını müsəlmanlara cümə günü qılmağı əmr etmişdir. Bu, Allahın bizə bəxş etdiyi böyük bir nemətdir. Məhz bu gündə müsəlmanlar bir yerə toplaşır, Allah və Rəsulunun ﷺ kəlamını eşitdikdən sonra namaz qılaraq oradan ayrılırlar. Ayların ən xeyirlisi Ramazan, gecələrin ən xeyirlisi qədr, günlərin ən xeyirlisi isə cümə günüdür.

### Cümə gününün fəziləti

Cümə günü günlərin ən yaxşısı[2], həftənin bayramıdır[3]. Adəmin عليه السلام yaradılması, Cənnətə daxil olması, oradan çıxarılması, yerə enməsi, tövbə etməsi və ölməsi cümə gününə təsadüf edir. Həmçinin, qiyamət də cümə günü qopacaqdır. Elə buna görə də, cümə günü heyvanlar gün çıxandan gün batana qədər qorxu içində olurlar. Məhz bu gündə müəyyən bir vaxt var ki,[4] o vaxtda dua edənin duası qəbul olunar.[5] Allah mübarək cümə günündə bizim ümmətə hidayət ver-

---

[1] əl-Buxari 892, 4371

[2] Əbu Davud 1047, Nəsəi 1373, İbn Məcah 1085

[3] Tabarani 4879, Albani bu hədisi səhihləşdirmişdir.

[4] Alimlər bu vaxtın nə zaman olduğu barədə ixtilaf etmişlər. Əksər alimlərin rəyinə görə bu vaxt əsirdən sonra olan vaxtdır.

[5] Əbu Davud 1046, Tirmizi 491, Nəsəi 1429. Albani bu hədisi səhihləşdirmişdir.

mişdir.[6] İki cümə arası kiçik günahların bağışlanması və bunlardan başqa bir sıra fəzilətlərə malikdir. Cümə günü günlərin ən hörmətlisidir.[7]

## Cümə namazının hökmü

Cümə namazı zöhr namazı kimi olmayan, müstəqil qılınan bir namazdır. Cümə namazı ilə zöhr namazının vaxtı eyni olsa da, uca səslə qılınması, rükətlərinin sayı, xütbənin oxunması və başqa şərtlərinə görə bir-birindən fərqlənirlər. Bu namazın hökmü vacibdir. Onun vacibliyinə Quran, sünnə və alimlərin ittifaqı dəlalət edir. Uca Allah buyurur: "Ey iman gətirənlər! Cümə günü namaza çağırılan zaman Allahı zikr etməyə tələsin və alış-verişi buraxın. Bilsəniz, bu sizin üçün nə qədər xeyirlidir".[8] Allahın bu ayədə "tələsin" deyə əmr etməsi ilə yanaşı "alış-verişi" də buraxmağı əmr etməsi bu namazın vacibliyinə və əhəmiyyətinə işarədir. Əgər bu namaz vacib olmasaydı onda Allah "alış-verişi" qadağan etməzdi. Peyğəmbər ﷺ buyurmuşdur: "Cümə namazı həddi buluğa çatmış *(hər bir müsəlman kişiyə)* vacibdir".[9] Başqa bir hədisdə buyurmuşdur: "Üç dəfə səbəb olmadan cüməni tərk edənin Allah qəlbini möhürləyər".[10] Abdullah ibn Məsud (r.a) cümə namazını tərk edənlər barədə Peyğəmbərin ﷺ belə dediyini eşitmişdir: "Canım Əlində olana and olsun ki, istərdim odun yığsınlar, sonra namaz üçün azan versinlər və kiməsə imam olmağı həvalə edib cümə namazına gəlməyən kişilərin evlərini yandırım".[11]

Müsəlmanlar cümə namazının vacib olmasında ittifaq etmişlər. Bu barədə İbn Munzir "əl-İcma" kitabında buyurmuşdur: "Cümə namazının azad insanlara, həddi buluğa çatmış və səfərdə olmayan üzrsüz hər bir kişiyə vacib olmasında alimlər yekdil rəyə gəlmişlər".[12]

---

[6] Buxari, 876, və Müslim 855
[7] İbn Məcah 1084, Albani bu hədisi həsənləşdirmişdir.
[8] Cümə surəsi, ayə 9
[9] Nəsəi 1370, Albani bu hədisi səhihləşdirmişdir.
[10] Əbu Davud1052, Nəsəi 1370 , İbn Məcah 1125.
[11] Müslim 652
[12] əl-İcma, 44

Yeddi şərt vardır ki, bunlar hansı bir müsəlmanda tamamlansa, cümə namazı ona vacib olur:

1 – Müsəlman olmaq.

2 – Həddi buluğa çatmaq.

3 – Ağlı başında olmaq.

4 – Kişi olmaq. Qadına və kişiliyi ilə qadınlığı bilinməyən insana cümə vacib deyildir.

5 – Azad insan olmaq. Qula cümə namazı vacib deyildir. Yalnız ağası icazə verərsə o zaman qul olana da cümə namazına getmək vacibdir.

6 – Yaşadığı yerin sakini olmaq. Müsafirə cümə vacib deyildir.

7 – Xəstəlik və s. kimi üzrlü səbəblərin olmamağı.

## Cümə namazının fəziləti

Əbu Hüreyrə (r.a) rəvayət edir ki, Peyğəmbər ﷺ dedi: "Cənabət qüslü *kimi qüsl* edib, cümə gününün *ilk saatında* məscidə gedən şəxs bir dəvə, ikinci saatında gedən bir öküz, üçüncü saatında gedən bir qoç, dördüncü saatında gedən bir xoruz, beşinci saatında gedən isə bir yumurta qurban vermiş[13] kimidir. İmam minbərə çıxdıqda isə artıq mələklər onun xütbəsini dinləyər".[14]

Əbu Hüreyrə (r.a) rəvayət edir ki, Peyğəmbər ﷺ dedi: "*Hər kəs* beş namaz, cümə ilə cümə, ramazanla ramazan arası böyük günahlardan çəkinərsə kiçik günahları bağışlanar".[15]

## Cümə qüslünün hökmü

Cümə namazının qüslünə dair alimlər ixtilaf etmişlər. Bəzi alimlərin rəyinə görə bu qüslün hökmü vacib, bəzilərinə görə isə tərk olunmayan sünnədir. Üzrsüz səbəbdən qüsl almayan şəxs alimlərin yekdil rəyinə görə günah qazanır. Abdullah ibn Ömər (r.a) rəvayət edir ki, Peyğəmbər ﷺ dedi: "Sizdən biriniz cümə namazına gəldikdə qüsl alsın".[16] İbn Ömər (r.a) rəvayət edir ki, Ömər (r.a) xütbə verdiyi zaman mühacirlərdən olan bir nəfərin qüsl almadığını gördükdə onu

---

[13] Sədəqə vermiş.

[14] Buxari 881, Müslim 1961

[15] Müslim 233

[16] Buxari 877, Müslim 844

çağıraraq ondan bu günün hansı gün olduğunu soruşdu. O: “Məşğul olduğum üçün evə gedə bilmədim və azanı eşitdikdən sonra dəstəmaz aldım”-dedi. Ömər (r.a) ona məgər Peyğəmbərdən (s.a.s) “Sizlərdən biriniz cüməyə getdiyi zaman qüsl alsın kəlməsini eşitməmisənmi?! -deyə xatırlatdı”.[17]

İbn Ömər (r.a) demişdir: “Cümə namazı vacib olan şəxsə qüsl də vacibdir”.[18]

Onu da qeyd edək ki, üzrlü səbəbdən cümə namazına gələ bilməyən şəxs üçün cümə qüslü də vacib deyildir. Qüsl etdikdən sonra dəstəmazı pozulan şəxsə isə yalnız dəstəmaz almaq kifayətdir və bu qüslün hökmünə heç bir təsir göstərmir. Cümə günü cunub olan şəxsə iki niyyətlə bir qüsl almaq kifayətdir.

Qüsl almadan cümə namazı qılan şəxsin namazı səhihdir. Lakin cümə namazının qüslü kimi vacib əməli tərk etdiyinə görə günah qazanır. Həmçinin qüsl cümə namazından öncə alınmalıdır.

## Cümə namazının ədəbləri

- cümə namazına gəlmədən öncə qüsl almaq.
- cümə namazı üçün ətirlənmək.
- insanlara əziyyət verən pis iylərdən çəkinmək.
- sivakla dişləri təmizləmək.
- ən gözəl paltarı geyinmək.
- imam xütbə verdiyi zaman ona tərəf baxmaq. İbn Məsud (r.a) rəvayət edir ki, Peyğəmbər ﷺ minbərə çıxdığı zaman üzümüzü ona tərəf çevirərdik.[19]
- bu gündə Peyğəmbərə ﷺ salavat deməyi çoxaltmaq.
- məscidə erkən getmək üçün tələsmək.
- piyada olaraq məscidə getmək bəyənilir.
- cümə günü sübh namazının birinci rükətində “əs-Səcdə” ikinci rükətində isə “əl-İnsan” surələrini oxumaq. Abdullah ibn Abbas (r.a) rəvayət edir ki, Peyğəmbər ﷺ cümə günü sübh namazının birinci

[17] Buxari 878
[18] Buxari 894
[19] Tirmizi 509, Albani bu hədisi səhihləşdirmişdir.

rükətində “əs-Səcdə”, ikinci rükətində isə “əl-İnsan” surələrini, cümə namazının birinci rükətində “əl-Cumua”, ikinci rükətində isə “əl-Münafiqun” surələrini oxuyardı.[20] Bəzi qardaşlarımız səcdə ayəsi olan bir surə oxuyurlar. Sünnə isə “əs-Səcdə” surəsinin özünü tam oxumaqdır. Lakin hərdən fərqli surələr də oxumaq lazımdır ki, cahil müsəlmanlar bu surələrin oxunmasının vacib olduğu qənaətinə gəlməsinlər. İki qrup imam bu sünnəyə xəta ilə yanaşırlar. Birinci qrup camaata əziyyət olmasın deyə tamamilə bu sünnəni tərk edir. Halbuki, bunu birdəfəlik tərk etmək də xətadır. İmam vaxtaşırı bu surələri oxumaqla camaata bunun sünnə olduğunu xatırlatmalıdır. İkinci qrup imamlar isə bu sünnəni davamlı olaraq edirlər.

- cümə namazının birinci rükətində “əl-Cumua” ikinci rükətində isə “əl-Münafiqun” surələrini oxumaq və yaxud birinci rükətdə “əl-Alə” ikinci rükətdə isə “əl-Ğaşiyə” surələrini oxumaq sünnədir.
- bu gün duaların ən çox qəbul olunan vaxtı olduğu üçün duanı çoxaltmaq.
- səfləri aralayıb irəli doğru keçməmək. İnsanları aralayaraq irəli keçmək haramdır.[21] İmamın insanları aralayaraq irəli keçməsi isə bu hökmə aid deyildir.
- kimisə qaldıraraq onun yerində oturmamaq. Bu əməl haramdır.
- məscidi salamlama namazını qılmayınca oturmamaq.
- imam xütbə verərkən ona qulaq asmaq və danışmamaq.
- cümə namazından qabaq halqa şəklində oturmamaq. Abdullah ibn Amr (r.a) dedi: “Peyğəmbər ﷺ cümə namazından öncə halqa qurmağı qadağan etdi”.[22]
- mürgülədikdə yeri dəyişmək. Peyğəmbər ﷺ buyurdu: “Sizlərdən biriniz cümə günü mürgülədikdə yerini dəyişdirsin”.[23]
- camaata əziyyət vermədən imama tərəf yaxınlaşmaq.
- cümə günü “əl-Kəhf” surəsini oxumaq[24]. Səhər oxumaq daha əfzəldir.

---

[20] Müslim 2028
[21] Zadul-Mustaqna 5/125
[22] Əbu Davud 1079, Tirmizi 322, Nəsəi714, Albani bu hədisi həsənləşdirmişdir.
[23] Əbu Davud1119, Tirmizi 526
[24] Hakim 2/368, Beyhəqi 3/249, Albani səhihləşdirmişdir.

- cümə namazından sonra məsciddə dörd və yaxud evdə iki rükət sünnə namazı qılmaq. Abdullah ibn Ömər (r.a) sünnə namazlarını sayarkən dedi: “Cümədən sonra evində iki rükət qılmaq”.[25] Əbu Hüreyrənin rəvayət elədiyi hədisdə Peyğəmbər ﷺ dedi: “Sizdən biriniz cümə namazı qıldıqdan sonra dörd rükət də qılsın”.[26] İbn Qeyyim qeyd edir ki, İbn Teymiyyə demişdir: “*Bu sünnə namazı* məsciddə dörd, evdə qılındıqda isə iki rükət qılınır”[27] Abdullah ibn Ömərdən (r.a): “Məsciddə dörd, evində qıldıqda isə iki rükət qılardı”[28]- şəklində rəvayət edilmişdir.
- sütunlar arasında namaz qılmamaq. Yer olmadıqda isə sütunlar arasında qılmaq caizdir.
- daima bir yeri seçib namazı həmişə orada qılmamaq.
- namaz qılan şəxsin qabağından keçməmək.
- Quran oxuduğu zaman səsini qaldırmaqla başqalarına əziyyət verməmək.
- məscidə getdikdə yol ədəblərinə riayət vermək.
- cümə namazı qıldığı yerdə danışmayıncaya qədər ayrı namaz qılmamaq.[29]
- bu günü oruc tutmaqla xüsusiləşdirməmək.
- sıxlıq üzündən səcdə edə bilməsə qabağındakının qalxmasını gözləyərək sonra səcdə etmək. Səid ibn Əli əl-Qahtani İbn Bazın belə dediyini eşitmişdir: “İnsan Məscidul-Haramda güclü basırığa düşüb, səcdə edə bilmədikdə insanların qalxmasını gözləyib, sonra səcdə etməlidir”.[30] Muhəmməd ibn Saleh əl-Useymin demişdir: “Səcdə etməyə yer olmadıqda “imə” edilməlidir. Yəni səcdə etmək üçün bir az əyilmək. Çünki zərurət olduqda bu cür səcdə etmək sünnədə varid olmuşdur. İnsanın belinə və ya ayaqlarına səcdə etmək rəyi isə zəif

[25] Buxari 1/87
[26] Müslim 881
[27] Zədul-Miad 1/ 440
[28] Ədu Davud 1130
[29] Müslim 710
[30] Salatul-Mumin 2/790

rəydir".[31] İmam Malik buyurmuşdur: "Kiminsə belinə səcdə etmək namazı batil edir".[32]

- imamın göründüyü və ya səsi daha yaxşı gələn yerdə oturmaq. Bu, xütbənin daha yaxşı başa düşülməsinə və ondan daha çox fayda götürülməsinə kömək edir.
- imam xütbə verən zaman məscidə girdikdə salam verməmək.
- asqırdıqda sakitcə "əlhəmdu-lilləh" demək.
- xütbəni başa düşməyən uşaqları cümə namazına gətirməmək. Bu başqa namaz qılan qardaşların xütbəni başa düşməsinə mane olur.
- imam minbərə qalxanadək rükətlərinin sayını əvvəldən təyin etməmək şərti ilə istənilən sayda iki rükətli sünnə namazları qılmaq.

## Cümə namazının qəbul olma şərtləri.

1. Vaxt. Cümə namazı vaxtında qılınmadıqda qəbul olmur.
2. Camaat. Camaat olmadıqda cümə namazı qılmaq olmaz. Cümə namazının qılınması üçün ən azı üç nəfər olmalıdır. Həmçinin bu üç nəfərin hər birinə cümə namazı qılmaq vacib olmalıdır. Bu rəyi İbn Teymiyyə, Əhməd, İbn Baz və başqa alimlər dəstəkləyirlər.
3. Köçəri xalq olmamalıdır. Qışda bir yerdə yayda başqa yerdə yaşayan xalqlara cümə namazı vacib deyildir. Peyğəmbərin ﷺ dövründə səhrada məskən salmış köçəri ərəblər cümə namazını qılmırdılar. Peyğəmbər ﷺ də onlara bunu əmr etmədi.

Bir dəstə müsəlman səfərə çıxdıqda onlar cümə namazı deyil, zöhr namazını qılırlar. Peyğəmbər ﷺ çoxlu səfər etməsinə baxmayaraq bir dəfə də olsun səfərdə cümə namazı qılmayıb. Əgər bu caiz olsaydı Peyğəmbər ﷺ bir dəfə də olsun cümə namazını qılardı. Lakin hər hansı bir müsəlman səfərdə olarkən olduğu şəhərin sakinləri cümə namazı qılırlarsa o adama da yerli sakinlər kimi cümə namazı qılmaq vacib olur. Muhəmməd ibn Saleh əl-Useymin dedi: "Elə bir səhabə tanımıram ki, cümə namazına qədər hər hansı bir yerdə qalıb və

[31] Zədul Mustəqna 5/64
[32] Şərhul-Kəbir 5/ 442-443

cümə namazını tərk edib. Əksinə onlar Peyğəmbərin ﷺ yanına gəldikdə onunla birlikdə cümə namazını qılırdılar".[33]

4. Namazdan qabaq xütbə vermək.

## Xütbə verməyin ədəbləri

Cümədən öncə imam mütləq xütbə verməlidir. Bunu tərk etdiyi halda cümə namazı da batil sayılır. Çünki Peyğəmbər ﷺ bir dəfə də olsun xütbəsiz cümə namazı qılmamışdır. Əgər bu caiz olsaydı Peyğəmbər ﷺ bunu bizə bildirərdi. Xütbənin kamil olması üçün ədəblər vardır ki, bu ədəblərdən bəzilərinin hökmü vacib, bəziləri isə sünnədir.

1. Minbərə qalxdıqda oturmazdan əvvəl salam vermək.
2. Xütbəni minbərdən və yaxud hündür yerdən vermək. Minbərin imamın namaz qıldırdığı yerin sağ tərəfində və üç pilləkandan ibarət olması sünnədir.
3. Salam verdikdən sonra azan qurtarana qədər oturmaq.
4. Xütbəni ayaq üstə vermək. Otura-otura xütbə vermək caiz deyildir.
5. İki xütbə arası əyləşmək.
6. Əsaya söykənmək.
7. Xütbəni qısa vermək. Ammar (r.a) rəvayət edir ki, Peyğəmbər ﷺ dedi: "Namazı uzatmaq, xütbəni qısa etmək xətibin (xütbə verənin) fəqih olmasının (şəriət elmlərini başa düşməsinin) əlamətlərindəndir!".[34]
8. Səsini bacardığı qədər qaldırmaq. Cabir ibn Abdulluh (r.a) rəvayət edir ki, Peyğəmbər ﷺ xütbə verərkən qoşuna öyüd-nəsihət verən sərkərdə kimi gözləri qızarar, səsini qaldırar və qəzəblənərdi."[35]
9 . Dua elədiyi zaman əlləri qaldırmamaq.
10. Düz baxmaq. Muhəmməd ibn saleh əl-Useymin buyurmuşdur: " Düzünə baxmalı, sağ və sol tərəfə dönməməlidir."[36]İmam Nəvəvi

[33] Zadul-Mustaqna 5/15
[34] Müslim 2006
[35] Müslim 867
[36] Zadul- mustaqna 5/85

buyurmuşdur: "Sağ və sol tərəfə çevrilməməlidir". İbn Həcər "Bu əməl bidətdir"-deyə buyurmuşdur.[37]

11. Müsəlmanlar üçün dua etmək.

12. Xütbə verdiyi zaman əlləri tərpətməmək.

13. Səcdə ayəsi oxuduğu zaman minbərdən düşərək səcdə etmək. Xütbəyə başladıqda ilk olaraq Allaha həmd, sonra Onun təkliyinə və Muhəmmədin onun elçisi olmasına şəhadət etmək, Peyğəmbərə ﷺ salavat demək, qurandan bəzi ayələr oxumaq, Allahdan qorxmağı tövsiyə etmək lazımdır. Xütbəni "xütbətül-hacə" ilə başlamaq sünnədir.

- İmam xütbədə haram söz, söyüş, kiməsə lənət və buna bənzər sözlər işlədərsə o zaman xütbə batil olur. Çünki xütbədə məqsəd insanları haramdan çəkindirməkdir.[38]
- Xütbə insanların başa düşdükləri dildə verilməlidir. Ayələri zikr etdikdə isə ərəbcə demək, sonra isə mənasını insanlara çatdırmaq lazımdır.

**İmamın insanlara nəsihəti**

- İmam camaatın vəziyyətindən xəbərdar olmalı, onların ehtiyacı olduğu mövzunu seçməlidir. Çünki müsəlmanlar bir bədən kimidirlər.
- Yaxın zamanda baş vermiş pis və yaxşı hadisələr barədə danışmalı. İslamın həmin hadisə barədə rəyini bildirməli və ondan ibrətlər çıxartmaqla camaata fayda verməli.
- Verilən xütbəni yaxın bir müddət içində yenidən verməməli.
- Başqalarının xatırlatdığı tövsiyələrdən nəticə çıxartmalı.
- Xütbəni çox uzatmamalı.
- Yağış yağması üçün dua etdikdə əlləri qaldırmalı. Bundan başqa yerdə qaldırmaq varid olmayıb.
- Başqalarının təcrübəsindən istifadə etməli.
- Camaatın ehtiyacı olduğu xütbələri kaset və ya başqa vasitələrlə camaata yaymalı.

[37] Haşiyəti İbnul- Qasim alər-rovdatul murbi 2/456

[38] Zadul-Mustaqna 5/78

## Cümə namazının qılınması.

Cümə namazı iki xütbə və iki rükət namazdan ibarətdir. Abdullah ibn Ömər (r.a) rəvayət edir ki, Peyğəmbər ﷺ iki xütbə verər və xütbələr arasında oturardı.[39]

Cümə xütbəsini bir adam, cümə namazını isə ayrı adam qıldıra bilər. Cümə namazı səslə qılınan namazdır. İmam bu namazı səssiz qıldırsa belə namaz səhihdir, çünki səslə oxumaq sünnədir. Bu namazın ikinci rükətinin rükusuna çatan kəs cümə namazına çatmış sayılır. İkinci rükətin rükusundan sonra yetişən şəxs isə zöhr namazını niyyət edərək onlara qoşulmalıdır. Cümə namazından sonra məsciddə dörd rükət, evdə isə iki rükət sünnə namazı qılmaq olar.

Cümə namazını üzrlü səbəbdən tərk edən kəs zöhr namazını cümə qılınan vaxta qədər gecikdirməsi daha əfzəldir.

## Cümə günü edilən xətalar

- Müsəlmanlar cümə namazına tez getməyin fəzilətini bildiklərinə baxmayaraq qəsdən cümə namazına üzrsüz səbəbdən gecikirlər. Bununla onlar böyük savabdan məhrum olurlar. Bunu bildiyi halda tənbəllikdən və yaxud qəsdən gecikərsə insan böyük bir səhv etmiş olur.
- Gec gəldiyi halda camaatı aralayaraq irəliyə doğru keçmək. Peyğəmbər ﷺ bunu qadağan etmişdir. Peyğəmbər ﷺ xütbə verərkən bir nəfər camaatı aralayaraq irəliyə doğru keçir, Peyğəmbər ﷺ də ona: "*Camaata* əziyyət verdin otur"-deyə müraciət edir.[40] İmam Nəvəvi, ibn Teymiyyə, Muhəmməd Saleh əl Useymin və başqa alimlər bu əməlin haram olduğunu bəyan etmişlər.
- Yer tutaraq məsciddən çıxmaq. Bəzi müsəlman qardaşlar məscidə gələrək yerə bir şey sərməklə yeri tutub məsciddən gedirlər. Xütbənin başlamasına az qalmış gəlib həmin yerdə

---

[39] Buxari 920, Müslim 1992

[40] Əbu Davud 1118, Nəsəi 3/103, Əhməd 4/188

oturular. Bəzi alimlər bu əməlin haram olmasını qeyd etmişlər. İbn Teymiyyə bu barədə buyurmuşdur: "Müsəlmanın özü gəlib oturması sünnədir, səccadə və yaxud başqa bir şeylə yer tutan kəs zalımdır. Ona bunu qadağan etmək lazımdır. Qoyulan səccadələr isə qaldırılmalıdır ki, insanlar o yerlərdə otursunlar".[41]

- Bəzi müsəlman qardaşlar məscidə gəldikdən sonra ibadətlə məşğul olmaq əvəzinə dünya söhbətləri edirlər. Məsciddən savab əvəzinə günah götürərək ayrılırlar. Müsəlmanlar bu xətaya ciddi fikir verməlidirlər. Məscidə gəldikdən sonra dünya söhbətlərini tərk edib ibadətlə məşğul olmaq lazımdır. Bəzi səhabələr məscidə gəldikdən sonra Quran oxuyar və yaxud nafilə namazları qılardılar. İbn Teymiyyə bəzi səhabələrin on bəzilərinin on iki rükət qılmasını bəyan edir. Sən də müsəlman qardaşım imam minbərə çıxana qədər istədiyin ibadətlə məşğul ol. Quran oxumaq, zikr eləmək, namaz qılmaq və s.
- Məsciddə olarkən uca səslə Quran oxuyaraq və yaxud zikr etməklə başqa müsəlman qardaşlara əziyyət verməmək. Peyğəmbər s.a.s dedi:
- "Sizlərdən biriniz Quran oxuduğu zaman səsini başqalarının üzərində qaldırmasınlar " hədisi Əbu Davud rəvayət etmişdir.
- Xütbə verildiyi zaman danışmaq və yaxud danışanlara sus demək. Əbu Hüreyrə (r.a) rəvayət edir ki, Peyğəmbər ﷺ dedi: "Cümə günü imam xütbə verdiyi zaman yanında oturana "Danışma!" deyən (cümənin) savabını qazanmaz".[42]

**QEYD:** Əlinizdəki kitab insan əməyinin bəhrəsidir və ona görə də orada xətaların olması labüddür. Hər hansı bir xəta ilə üzləşdikdə və ya mövzu ilə bağlı daha maraqlı təklifiniz olarsa, ramil.soltanov@gmail.com elektron ünvanına yazmanızı xahiş edirik.

---

[41] Fətava İbn Teymiyyə 24/216

[42] Buxari 934, Müslim 1962